*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 45-51* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.45*

# Cəlil Məmmədquluzadənin şəxsi arxivi

**Afaq Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
E-mail: afaq23@mail.ru

**Annotasiya.** Tariximizin uzaq keçmişi ilə bağlı materialların mühafizə edildiyi yerlərdən biri də Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutudur. Burada müxtəlif elm sahələrini əhatə edən materiallarla yanaşı, XIX-XX əsrlərdə yaşayıb-yaratmış görkəmli sənət adamlarının, dövlət və ictimai-siyasi xadimlərinin şəxsi arxivləri də qorunur. Əsası 1934-cü ildə A.Bakıxanovun arxivi ilə qoyulan bu xəzinə sonradan bir çoxlarının şəxsi arxivləri fonda təhvil verilməklə zənginləşmişdir. Hazırda 32 şəxsi arxivdən ibarət bu xəzinədə nasir, dramaturq, publisist, ictimai xadim, "kiçik hekayələrin böyük ustası", satirik mətbuatın banisi kimi əbədiyaşarlıq qazanmış Cəlil Məmmədquluzadənin (1869-1932) də şəxsi arxivi 6 saylı fondda mühafizə olunur.
Təqdim olunan məqalədə yazıçının vəfatından sonra ailəsi tərəfindən müxtəlif vaxtlarda SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsinə (AzOZFAN-a) təhvil verilmiş arxivindən bəhs edilir. İlk vaxtlarda çox da zəngin olmayan bu arxivin yazıçının həyat və fəaliyyətinin tədqiqi üçün mirzəcəlilşünasların istinad edə biləcəkləri ilk mənbə kimi qiymətləndirilmişdir. Həmçinin C.Məmmədquluzadənin şəxsi arxivinin M.Davatdarov, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi tərəfindən və yazıçının dövlət səviyyəsində keçirilən yubileyləri dövründə əldə edilən əlavələr hesabına zənginləşməsindən danışılır. Bundan əlavə, məqalədə şəxsi arxivdə mühafizə olunan bu dəyərli materialların gələcək nəsillərə və elmi ictimaiyyətə çatdırılmasında C.Məmmədquluzadə arxivinin ilk araşdırmaçısı kimi, H.Səmədzadənin xidmətlərindən, arxivin kitab halında ilk 1961-ci il və üzərindən 50 il ötdükdən sonra daha mükəmməl 2011-ci il nəşrlərindən bəhs olunur.
**Açar sözlər:** Cəlil Məmmədquluzadə, şəxsi arxiv, əlyazma, avtoqraf, arxiv təsviri

**Məqalə tarixçəsi:** göndərilib – 28.11.2024; qəbul edilib – 09.12.2024

# Personal archive of Jalil Mammadguluzadeh

**Afag Aliyeva**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS
E-mail: afaq23@mail.ru

**Abstract.** One of the places where materials related to the distant past of our history are stored is the Institute of Manuscripts named after Muhammad Fuzuli of the National Academy of Sciences of Azerbaijan. In addition to materials covering various fields of science, the Institute's funds contain personal archives of outstanding creative personalities, statesmen and socio-political figures who lived and worked in the 19th-20th centuries. This treasure, founded in 1934 on the basis of the archive of A.Bakikhanov, was subsequently replenished by the transfer of the personal archives of many figures to the fund. Currently, this treasury, consisting of 32 personal archives, also contains the archive (fund – 6) of the writer, playwright, publicist, public figure, "the great master of small short stories", who won eternity as the founder of the satirical press, Jalil Mammadkulizadeh (1869-1932).
The presented article talks about the archive transferred to the Azerbaijan Branch of the Transcaucasian filial Branch of the Academy of Sciences of the USSR by his family at different times after the death of the writer.

At first, this not very rich archive was assessed for Mirzajalil scholars as the first source for studying the life and work of the writer. There was also talk of replenishing the personal archive of J.Mammadkulizadeh due to the materials received from M.Davatdarov, the Literary Museum named after Nizami Ganjavi, and also during the writer's jubilee held at the state level.

In addition, the article talks about the merits of H.Samedzadeh as the first researcher of the archive of J.Mammadguluzadeh in the transfer of these valuable materials (1935), preserved in the personal archive of the writer, to future generations and the scientific community. For these purposes, the importance of the first edition of the book “Description of the archive of Jalil Mammadguluzadeh (Molla Nasreddin)” (1961) and the more improved second edition (2011), published 50 years later, is also discussed.

**Keywords:** Jalil Mammadguluzadeh, personal archive, manuscript, autograph, archival description

**Article history:** received – 28.11.2024; accepted − 09.12.2024

## Giriş / *Introduction*

Şəxsi arxiv – arxiv fondunun bir hissəsi olub elm, ədəbiyyat və incəsənət nümayəndələri, dövlət və ictimai-siyasi xadimlərinin həyat və fəaliyyətini xarakterizə edən müxtəlif tərkibli və məzmunlu materialları özündə cəmləşdirən arxiv deməkdir. Şəxsi arxiv materialları insan şəxsiyyətlərinin həyat və fəaliyyətini öyrənməyə və eyni zamanda bu insanların müəyyən dövrün nümayəndələri kimi özünəməxsus xüsusiyyətlərini tanımağa və düzgün dəyərləndirməyə imkan verir. İstənilən şəxsin arxiv materialları onun yaşayıb-yaratdığı dövrün izini daşıyır, xatirəsini yaşadır. Bir sözlə, şəxsi arxiv materialları müxtəlif sahə araşdırıcılarının istinad etdikləri etibarlı elmi-biblioqrafik, sənədli mənbə kimi keçmiş şəxsiyyət və zaman haqqında düzgün təsəvvür müəyyənləşdirməyə, onu bütün rəngarəngliyi ilə üzə çıxarmağa imkan verən mühüm məxəzlərdən biridir.

## Əsas hissə / *Main Part*

Xalqın elmi, ədəbi və tarixi irsinin qorunduğu Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda tariximizin uzaq keçmişinə aid əlyazmalar, çap kitabları, jurnal, qəzet, fotoşəkillərlə yanaşı, XIX-XX əsrin birinci yarısında yaşayıb-yaratmış görkəmli klassiklərin və ictimai xadimlərin şəxsi arxivləri qorunub saxlanmaqdadır.

Şəxsi arxivlər, əsasən, şəxsin ailə üzvləri, qohumları, müasirləri tərəfindən, muzey və arxivlərdən İnstitutun fonduna təhvil verilmişdir. Əsası 1934-cü ildə Abbasqulu ağa Bakıxanovun arxivi ilə qoyulan bu xəzinə sonralar M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, M.T.Sidqi, N.Vəzirov, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, S.Mümtaz, Ə.Müznib, M.S.Ordubadi, A.Buzovnalı, Q.Məmmədli və başqalarının şəxsi arxiv materialları ilə zənginləşdirilmişdir. Onların içərisində ictimai fikir tariximizdə müstəsna xidməti olan, satirik mətbuatın banisi, ictimai xadim, dramaturq, nasir, publisist kimi əbədiyaşarlıq qazanmış Cəlil Məmmədquluzadənin (1869-1932) də şəxsi arxivi (fond – 6) vardır.

Yazıçının arxivində qorunan SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsinin (AzOZFAN-nın) sədri Əli Nazim tərəfindən təsdiqlənmiş 20 aprel 1932-ci il tarixli bir qəbzdə Həmidə Məmmədquluzadədən (1873-1955) C.Məmmədquluzadəyə məxsus 59 adda əlyazma və sənədlərin, habelə “Molla Nəsrəddin” jurnalının 1906, 1909, 1922, 1924-1928-ci illər komplektlərinin alındığı bildirilir (sax. vah. 399). Həmin saxlama vahidi altında olan digər bir qəbzdə C.Məmmədquluzadənin Həmidə xanım tərəfindən yazılan 62 səhifəlik bioqrafiyasının 22 oktyabr 1935-ci il tarixindən Ədəbiyyat sektorunda qorunduğu təsdiq edilir. H.Məmmədquluzadənin 11 noyabr 1936-cı ildə yazdığı “Əziz Şərifə cavab”ında (sax.vah. 387, 414) isə C.Məmmədquluzadənin ona yazılmış məktubların da AzOZFAN-a verildiyi məlum olur.

Müxtəlif fasilələrlə AzOZFAN-a təhvil verilən, ilk baxımdan yazıçının ədəbi-bədii və pub-

lisistik fəaliyyətini əhatə edə biləcək qədər zəngin olmayan bu materiallar mirzəcəlilşünasların istinad edə biləcəkləri ilk və çox önəmli bir qaynaq olmuşdur.

C.Məmmədquluzadənin şəxsi arxivindəki ilk araşdırma işləri Həbibulla Səmədzadə tərəfindən aparılmışdır. O, 1935-ci ildə "İnqilab və mədəniyyət" [3] jurnalında arxivdəki materialların təsvirinin xülasəsini çap etdirmişdir. H.Səmədzadənin şəxsi arxivində [9] bu təsvirin zamanına görə geniş şəkildə işlənmiş latın əlifbasında makinada yazılmış mükəmməl variantı da vardır. Sonralar arxivin tərkibi milli mədəniyyətimizin keşiyində duran ziyalı, vətənpərvər insanların şəxsi təşəbbüsü nəticəsində zaman-zaman yeni materaillarla zənginləşmişdir.

Şəxsi arxivlərdə mühafizə olunan bu dəyərli materialların gələcək nəsillərə və elmi ictimaiyyətə çatdırılması vacib məsələlərdəndir. Məhz bu baxımdan 1961-ci ildə "Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) arxivinin təsviri" Mərziyə xanım Paşayeva tərəfindən ilk dəfə kiril əlifbasında kitab halında nəşr edilmişdir. Nəşri böyük məsuliyyət, zəhmət və peşəkarlıq tələb edən bu kitab yazıçının şəxsi arxivindəki o vaxtkı bütün materialları əhatə etmişdir.

"Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) arxivinin təsviri" ikinci dəfə kitab halında 2011-ci ildə təkrar [2] hazırlanıb nəşr edilmişdir. İlk nəşrindən ötən 50 il ərzində C.Məmmədquluzadənin şəxsi arxivindəki materialların həcmi Müzəffər Davatdarov, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi tərəfindən və yazıçının dövlət səviyyəsində keçirilən yubileyləri dövründə əldə edilən əlavələr hesabına xeyli sayda artaraq – 595 saxlama vahidinə (bir saxlama vahidində 1-dən çox, bəzən 20-yə qədər material olduğu üçün ümumilikdə 900 material) çatmışdır. Bundan əlavə, 1972-ci ildə Dövlət Komissiyasının keçirdiyi yoxlamanın nəticəsi kimi Əlyazmalar İnstitutunda mühafizə olunan materialların inventar nömrələri saxlama vahidi ilə əvəz olunmuşdur. Təbii ki, bütün bunlar vaxtilə nəşr olunan arxiv təsvirini yenidən işləyib mükəmməl şəkildə müasir oxucuya latın əlifbasında təqdim etmək zərurətini yaratmışdır.

Bu gün Mirzə Cəlilin arxivində Azərbaycan (ərəb, latın, kiril əlifbasında), rus, fars, tatar, ərəb, türk, gürcü dillərində müxtəlif məzmunlu materiallar qorunur. Arxiv müəllifin əsərlərinin avtoqrafı, surəti, rus dilində tərcümə variantları, tərcümeyi-hallar, xatirələr, qeyd kitabçaları, ailə üzvləri, qohumları və müasirləri ilə məktublaşmaları, sənədlər, fotoşəkillər, müxtəlif qəzet və jurnal nümunələri, çap kitabları və s. yanaşı, onun ailə üzvlərinə, qohumlarına və müasirlərinə məxsus materialları əhatə edir.

Şəxsi arxiv materialları arasında C.Məmmədquluzadənin həyat və yaradıcılığının öyrənilməsi baxımından biri avtoqraf, digəri isə Əsəd Tahir tərəfindən 1927-ci ildə "müəllifin yazdığı dəstxətindən icazə ilə köçürtmə" olan iki tərcümeyi-halı, eləcə də Həmidə Məmmədquluzadənin babası, atası və Mirzə Cəlil haqqında ayrı-ayrılıqda qələmə aldığı tərcümeyi-hallar qorunur. Bu mənada Mirzə Cəlilin özünün müəllifi olduğu "Xatiratım" (sax.vah. 75, 77) və H.Məmmədquluzadə, A.Mjavanadze, Ə.Azəri, Ə.R.Şamçızadə və Cəlalın ədib haqqında yazdığı xatirələri də Mirzə Cəlilin tədqiqatçıları üçün mühüm əhəmiyyət kəsb edir. Bundan savayı, M.Ş.Mirzəyevin "Qafqazda türk mətbuatı tarixinə dair xatirələrim", Əkbər xan Naxçıvanskinin X.Natəvan, H.Məmmədquluzadənin M.Ə.Sabir, Ə.Cavanşir haqqında xatirələri də vardır.

Yazıçının şəxsi arxivində irihəcmli dram əsərlərindən "Anamın kitabı" əsərinin 2 avtoqraf, 3 surət, "Ölülər"in 2 avtoqraf, 4 surət, "Danabaş kəndinin məktəbi"nin 2 avtoqraf, "Dəli yığıncağı"nın 4 avtoqraf, 2 surət, "Ər"in 3 avtoqraf, "Kamança"nın 1 avtoqraf, 4 surət, "Kişmiş oyunu"nun 1 surət, "Lal"ın 1 avtoqraf, "Lənət"in 1 surət, "Çay dəstgahı"nın 1 avtoqraf, "Yığıncağ"ın 2 avtoqraf nüsxələri vardır. C.Məmmədquluzadənin əsərlərinin mükəmməl üçcildlik elmi nəşri (1966) məhz bu əlyazma nüsxələrin müqayisəsi əsasında əldə edilmişdir.

"Kiçik hekayələrin böyük ustası" hesab olunan Mirzə Cəlilin nəsr əsərlərindən bir qisminin "Saqqallı uşaq" (2 nüsxə), "Sarı" (2 nüsxə), "Zəlzələ" (2 nüsxə), "Buz", "Danabaş kəndinin məktəbi", "Atlar dayandı", "Bu nə qiyamətdir?", "Eydi-rəməzan", "Xanın təsbehi", "İki alma", "İki qardaş", "Konsulun arvadı", "Qiyamət", "Qoşa balınc", "Proletar şairi", "Şeir bülbülləri", "Şəhər və kənd", "Taxıl həkimi", "Toy", "Ucuzluq", "Yan tütəyi", "Yuxu"nun 1 nüsxədən ibarət avtoqrafları və "Rus qızı" (2 nüsxə), "Danabaş kəndinin əhvalatları","Oğru

inək", "Quzu"nun 1 nüsxədən ibarət surətləri arxivdə mühafizə olunur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, zamanında ədibin arxivində və "Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) arxivinin təsviri" (1961) kitabının ilk nəşrində № 6 - 297/3953 inventar nömrəsi altında qeydə alınan 6 vərəqdən ibarət "Poçt qutusu" [8, s.37] əsərinin əski əlifbada 12 noyabr, 1903-cü il tarixli yeganə avtoqrafını arxiv təsvirinin ikinci nəşri (2011) zamanı əldə etmək mümkün olmamışdır.

Arxivdə H.Məmmədquluzadənin ədib haqqında rus dilində yazdığı "Xatirələrim" əsəri üçün C.Məmmədquluzadənin "Poçt qutusu", "Rus qızı", "Yan tütəyi", "Taxıl həkimi" hekayələri, "Erməni və müsəlman övrətləri", "Qafqaz Şeyxül-islamına iki dənə açıq məktub (əvvəlinci məktub)", "Qafqaz Şeyxül-islamına iki dənə açıq məktub (ikinci məktub)" məqalələri, o cümlədən müxtəlif yazarların hekayə və məqalələrinin rus dilinə etdiyi tərcümələri də vardır.

Yazıçının yaradıcılığının böyük bir hissəsini mətbuat səhifələrində 161 açıq və gizli imza [7, s.185-190] ilə dərc etdirdiyi felyeton və məqalələri təşkil edir. Bu publisistik yazılardan "Cümhuriyyət", "Arvad məsələsi" "Bəs Aspisova xanımın müsəlman qızları üçün məktəbi necə oldu?" məqalələri və C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalında dərc olunan "Molla Nəsrəddin" imzalı felyetonlarının nömrələnmiş saya vərəqlərin bir üzünə yazılmış – ümumilikdə 176 səhifədən ibarət surəti (sax.vah. 69, 70) arxivdə saxlanılır. Göründüyü kimi, yazıçının publisistik əsərləri, ona misilsiz şöhrət gətirən və onu "Azərbaycan Mollanəsrəddini" (Ə.Mirəhmədov) kimi tanıdan və sevdirən felyeton və məqalələrinin əlyazmaları yox dərəcəsindədir. Bunun bir neçə səbəbi vardır. Əvvəla, C.Məmmədquluzadə bir müddət Tiflisdə, qısa bir müddət Təbrizdə, daha sonra isə Bakıda yaşamalı olmuşdur. "Tale "Molla Nəsrəddin"ə çar Rusiyası zamanında Qafqazın mərkəzi olan Tiflisdə, Azərbaycanın hər iki tayında, hər iki paytaxtında – Təbrizdə və Bakıda nəşr olunmaq nadirliyi qismət etmişdir" [1, s.X].

Bu o deməkdir ki, jurnal səyyar – Tiflis (1906-1917) – Təbriz (1921) – Bakıda (1922-1931) nəşr olunmuş və C.Məmmədquluzadə üçün bu böyük sərvəti qoruyub saxlamaq müəyyən mənada mümkün olmamışdır. İkinci tərəfdən, onsuz da jurnalın səhifələrində əbədi yaşamaq hüququ qazanmış felyetonlarını yenidən səliqə ilə bir yerə toplamaq "xırdaçılığı" bütün varlığı ilə "Molla Nəsrəddin" jurnalına bağlı olan, güc və imkanını onun nəşrinə səfərbər edən, sözün əsl mənasında, bu "böyük adam"ın – "zülmət içində bir nur" (M.Rəfili) olan Mirzə Cəlilin təbiətinin və vaxt imkanının hüdudlarından kənar idi. Nəhayət, "Molla Nəsrəddin" daima senzor nəzarətində olmuş, "dostları" kimi "düşmənləri" (A.Paşayev) də çox olan bu jurnal tez-tez jandarm basqını və axtarışlarına məruz qalmış, onun arxivini qoruyub saxlamaq mümkün olmamışdır. Əslində, müəlliflər öz yazılarını yalnız gizli imza ilə dərc olunmaq şərti ilə jurnala göndərdiklərindən onları təhlükədən qorumaq üçün heç lazım da bilinməmişdir.

Müasirlərinin yazıçıya yazdıqları məktubların bir çoxunun bu gün onun arxivində olmaması da məhz buna bənzər səbəblərlə bağlıdır. Qori Seminariyasının məzunu, pedaqoq, mətbuat tarixçisi, publisist, ictimai xadim F.Ağazadə F.Köçərliyə məxsus bir sandıq materialın hələ Badisəba xanımda olduğu vaxtda, yəni – məhv edilməmişdən qabaq 1930-cu ildə Firidun bəyin bioqrafiyasını yazmaq istəyi ilə həmin arxiv materiallarına müraciət etmiş, həm 26 vərəqdən ibarət "Firidun bəy Köçərlinin bioqrafiyası"nı [11, s.24-25] yazmış, həm də ağlagəlməz bir uzaqgörənlik göstərərək həmin arxivin iki şagird dəftərindən ibarət siyahısını [10, s.33-35] tutmuşdur. Həmin siyahıda C.Məmmədquluzadənin 1887-ci ildən 1913-cü ilə kimi Firidun bəy Köçərliyə 22 məktub göndərdiyi qeyd olunmuşdur. Şübhəsiz ki, F.Köçərli də bu məktubları cavabsız qoymamışdır. Hələ 1920-ci ildə "xalq düşməni" kimi güllələnən F.Köçərli arxivinin 1937-ci ilin noyabr ayının 10-da Məmməd Vəkilovun oğlu Mustafa Vəkilovun Xalq Daxili İşlər Komissarlığı (rusca: NKVD) tərəfindən həbs edildiyi zaman onun şəxsi materiallarının müsadirəsi zamanı Firidun bəy Köçərliyə məxsus bir sandıqdan ibarət arxivin də aparıldığı [4, s.121] və məhv edildiyi məlumdur. Bəs F.Köçərlinin məktublarının C.Məmmədquluzadə arxivində olmamasının səbəbi nə idi? Həmidə Məmmədquluzadə "Mirzə Cəlil haqqında xatirələrim" əsərində yazır: "O öz otağına getdi. Şkafı açıb əsərlərinin qaralamalarını götürüb bir-bir baxdıqdan sonra yerə atdı…

Dedi ki, sobanı qalamaq istəyir… O, böyük kağız bağlamalarını, müxtəlif qaralamaları sobaya atıb yandırırdı. Bu zaman o, çox əsəbi idi. Mən ona heç bir söz deyə bilmirdim. Kənarda dayanıb ürəkağrısı ilə tamaşa edirdim" [6, s.187].

Əslində, bu bağlamaların sobada yandırılması 1931-ci il dekabrının şaxtasını dəf etməkdən daha çox, qarşıdan gələn illərin doğurduğu qorxunun dəfinə xidmət edirdi və yandırılan kağız bağlamalarının içərisində C.Məmmədquluzadə və müasirlərinə məxsus hansı qiymətli materialların yandığı bu gün də naməlum qalmaqdadır.

Ədibin arxivində Azərbaycan (ərəb, latın, kiril əlifbasında), rus, fars, tatar dillərində yazılmış 412 məktub saxlanılır. Həmin məktublar üzərində bu kimi təsnifat aparmaq mümkündür:

Məktublar arasında C.Məmmədquluzadənin ailə üzvlərinə – xanımı H.Məmmədquluzadəyə, övladları Ənvərə, Midhətə, Müzəffərə, Münəvvərə yazılmış məktublar daha çoxluq təşkil edir. Belə ki, yazılmış 124 məktubdan 101-i H.Məmmədquluzadəyə ünvanlanmışdır;

"C.Məmmədquluzadənin müxtəlif şəxslərə yazdığı məktublar" sırasında müasirlərindən Eynəli Sultan, Əli Məhzun, Məmmədəli Sidqi, Məmməd Səid Ordubadi və başqalarına ünvanladığı 54 məktubdan 39-u Məmmədəli Sidqiyə yazılmış məktublardır;

"C.Məmmədquluzadəyə yazılmış məktublar"da M.Ə.Sabir, Ə.R.Şamçızadə, İ.Həqqi, İ.Qasprinski, R.Nəcəfov, O.Şmerlinq, Ə.Səfərov, F.Pişnamazzadə, H.Qazıyev, B.Sofiyev, Treskinski, H.Məmmədquluzadə, Cəlal, Ə.Babayev və başqalarının yer aldığı 38 məktub;

Fasilələrlə 25 il nəşr olunan, Qafqazdan Rusiyaya, Yaxın və Orta Şərqə qədər geniş bir coğrafi ərazidə yayılan Azərbaycanın ilk satirik mətbuat orqanı "Molla Nəsrəddin" jurnalı redaksiyasının yazarları, müxbirləri və müxtəlif idarələrlə xeyli yazışmaları olmuşdur. Lakin ədibin arxivində bu məktubların cüzi hissəsi var ki, bu da yuxarıda göstərilən məlum səbəblərlə bağlıdır. Məktubların sayına görə arxivdə ikinci böyük bölmə "Molla Nəsrəddin" jurnalı redaksiyasına yazılmış məktub və təliqələr" təşkil edir ki, burda da cəmi 83 məktub var. "Molla Nəsrəddin" jurnalı redaksiyasının müxtəlif şəxslərə yazdığı məktub və təliqələr"də 10, "Molla Nəsrəddin" jurnalı redaksiyasının müxtəlif yerlərə yazdığı məktub və təliqələr"də isə 16 məktub mühafizə olunur. Bu yazışmalar jurnalda dərc olunmuş yazılar, məqalə mövzusu, abunə, mühasibatlıq, mətbəə-nəşriyyat və s. məsələlərlə bağlıdır;

Arxivdə 31 məktubdan ibarət "Həmidə Məmmədquluzadəyə yazılmış məktub və təliqələr" bölməsində Azərbaycan Xalq Komissarlar Şurası, Uşaq Kitab Evinin müdiri, Eynəli Sultan, Əziz Şərif, Həbibulla Səmədzadə, Kərimbəy Mehmandarov və digərlərinin məktubları ilə yanaşı, H.Məmmədquluzadənin ailə üzvlərinə yazdığı 5, müxtəlif şəxslərə yazdığı 2, uşaqlarına müxtəlif şəxslər tərəfindən yazılmış 3 məktub mühafizə olunur. Son üç bölmə məktub sayına görə arxivdə ən kiçik bölmələrdir; Nəhayət, "Digər məktub və təliqələr"də isə müxtəlif coğrafi ərazi, şəxs və idarələr arasındakı 46 məktub mühafizə olunur.

Məlum olduğu kimi, Şəxsi arxivdəki məktubların hər biri müəllifin həyatı, keçdiyi yaradıcılıq yolu, dünyagörüşü, hissləri, ədəbi-tənqidi düşüncələri, mövcud dövrün ədəbi, ictimai-siyasi hadisələrinə münasibətini özündə əks etdirir və onu tarixi dəqiqliklə gələcək nəsillərə çatdırır. Məktubların əhəmiyyətindən danışan mətnşünas alim E.Qasımova yazır: "Müəlliflik hüququnun bərpası işində məktubların xüsusi rolu vardır. Məktubların nə vaxt, kimdən kimə, haradan haraya yazılması bir tərəfdən müəllifin nə vaxt harada olması faktını dəqiqləşdirirsə, digər tərəfdən məktubun içərisindəki faktlar atribusiyaya (imzasız, gizli imza və əsərin müəllifinin müəyyənləşdirilməsi – A.Ə.) yardım edir. Bəzən iki nəfər arasındakı məktublaşma tamamilə başqa bir müəllifin gizli imza, yaxud naməlum əsərinin üzə çıxmasına xidmət etmiş olur" [5, s.144].

Yazıçının şəxsi arxivində dəqiqlik baxımından qiymətli hesab olunan C.Məmmədquluzadəyə (54), H.Məmmədquluzadəyə (22), uşaqlarına (13) və müxtəlif şəxslərə (25) məxsus 114 sənəd; "Molla Nəsrəddin" jurnalı redaksiyasına məxsus abunəçilərin siyahısı, qəbzlər, abunə-satış kitabçaları, haqq-hesab dəftərləri, kassa kitabçası, eləcə də Mirzə Cəlil və ailə üzvlərinə, "Molla Nəsrəddin" jurnalı redaksiyasına məxsus həyatın bir anını özündə yaşadan, onu tarixiləşdirən 43 fotoşəkil mühafizə olunur.

Arxiv materialları sırasında Azərbaycan (1910-1967-ci illərə aid), Şərq (1887-1932-ci

illərə aid), rus və gürcü (1921-1951-ci illərə aid) dillərində qəzet və jurnallarla bərabər, Azərbaycan, Şərq və rus dillərində müxtəlif çap kitabları da saxlanılır. Ədibin şəxsi arxivində "Usta Zeynal" (1906), "Qurbanəli bəy" (1907), "Baqqal Məşədi Rəhim" (1925), "Sirkə" (1925), "Şeir bülbülləri" (1925), "Ölülər" (1925), "Bəlkə də qaytardılar" (1927) kimi müəllif nəşrləri və "Dəli yığıncağı" (1937) kitabları vardır.

## Nəticə / *Conclusion*

Göründüyü kimi, zəngin ədəbi və publisistik irsi yaranışından elmi və ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuş, zaman-zaman öz ətrafına yeni ədəbiyyatşünas nəsli cəlb etməyi bacarmış, yaradıcılığı müxtəlif aspektlərdən öyrənilmiş, müxtəlif əlifba (Azərbaycan dili ərəb, latın, kiril əlifbasında), tip (elmi, kütləvi) və seriyalarla nəşr olunmuş, dünya xalqlarının dillərinə tərcümə edilmiş Cəlil Məmmədquluzadənin şəxsi arxivi onun həyat və yaradıcılığının çox az bir hissəsini əhatə edir. Ümumiyyətlə, elə bir şəxsi arxiv yoxdur ki, o, bir şəxsin həyat və fəaliyyətini tam dolğunluqla əks etdirmiş olsun. Lakin buna baxmayaraq, böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, istənilən şəxsi arxiv hər zaman tədqiqatçılar üçün qiymətli, etibarlı məxəzlərdən biri hesab olunmuşdur.

## Ədəbiyyat / *References*


1. Aydınoğlu, T. "Molla Nəsrəddin"in Təbriz səfəri, yaxud inqilabla irtica arasında. "Molla Nəsrəddin" – 1921 (ərəb əlifbasından transfoneliterasiya edən: E.Qasımova). – Bakı: Adiloğlu, 2006.
2. Əliyeva, A. Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) arxivinin təsviri. – Bakı: Nurlan, 2011.
3. "İnqilab və mədəniyyət" jurnalı, 1935, № 1.
4. Köçərli, B. Ərizə (fond – 19, sax.vah. 90). Əliyeva A. Firidun bəy Köçərli arxivinin təsviri. – Bakı: Optimist, 2022.
5. Qasımova, E. Gizli imza və atribusiya. – Bakı: Avropa, 2017.
6. Məmmədquluzadə, H.Ə. Mirzə Cəlil haqqında xatirələrim. – Bakı: Azərnəşr, 1967.
7. Məmmədli, Q., Əliyeva, A. İmzalar. – Bakı: Letterpress, 2015.
8. Paşayeva, M. Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) arxivinin təsviri. – Bakı: Azərbaycan SSR EA nəşri, 1961.
9. Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi. Fond – 516, siyahı: 1, iş: 3.
10. Siyahı (fond – 19, sax.vah. 100). Əliyeva A. Firidun bəy Köçərli arxivinin təsviri. – Bakı: Optimist, 2022.
11. Şərqli. Firidun bəy Köçərlinin bioqrafiyası (fond – 19, sax.vah. 37). Əliyeva A. Firidun bəy Köçərli arxivinin təsviri. – Bakı: Optimist, 2022.


## Личный архив Джалила Мамедкулизаде


**Афаг Алиева**
Доктор философии по филологии, доцент
Институт рукописей имени Мухаммеда Физули НАНА
E-mail: afaq23@mail.ru



**Резюме.** Одним из мест, где хранятся материалы, относящиеся к далекому прошлому нашей истории, является Институт рукописей имени Мухаммеда Физули Национальной Академии Наук Азербайджана. Помимо материалов, охватывающих различные области науки, в фондах Института хранятся личные архивы выдающихся творческих личностей, государственных и общественно-политических деятелей, живших и творивших в XIX-XX веках. Эта сокровищница, заложенная в

1934 году на базе архива А.Бакиханова, впоследствии пополнилась за счет передачи в фонд личных архивов многих деятелей. В настоящее время в этой сокровищнице, состоящей из 32 личных архивов, хранится также архив (фонд – 6) писателя, драматурга, публициста, общественного деятеля, "великого мастера малых рассказов", завоевавшего вечность как основоположник сатирической печати, Джалила Мамедкулизаде (1869-1932).

В представленной статье говорится об архиве, переданном Азербайджанскому Отделению Закавказского филиала Академии Наук СССР (АзОЗФАН) его семьей в разное время после смерти писателя. Поначалу этот не очень богатый архив оценивался для ученых-мирзаджалилцев как первый источник для изучения жизни и деятельности писателя. Говорилось также пополнении личного архива Дж.Мамедкулизаде за счет материалов, полученных от М.Даватдарова, Литературного Музея имени Низами Гянджеви, а также в ходе юбилеев писателя, проводимых на государственном уровне. Кроме того, в статье говорится о заслугах Х.Самедзаде как первого исследователя архива Дж.Мамедкулизаде в передаче этих ценных материалов (1935), сохранившихся в личном архиве писателя, будущим поколениям и научному сообществу. В этих целях также обсуждается важность первого издания книги "Описание архива Джалила Мамедкулизаде («Молла Насреддин»)" (1961) и более усовершенствованного второго издания (2011), вышедшего 50 лет спустя.

**Ключевые слова:** Джалил Мамедкулизаде, личный архив, рукопись, автограф, архивное описание